

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 134 (24.021)

20 iyul 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Derya Yanıkı qəbul edib.

Dövlətimizin başçısı qeyd edib ki, hazırda Türkiyənin inkişaf yolunda olması, ölkədə sabitliyin hökm sürməsi xalqımızı çox sevindirir. Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqlarından son dərəcə məmnunluqlarını ifadə edib və Prezident İlham Əliyevin liderliyi sayəsində qazanılan Qarabağ Zəfəri ilə bağlı böyük sevinc hissi keçirdiklərini bir daha vurğulayıb. Prezident İlham Əliyev Şuşa Bəyannaməsinin imzalanmasından sonra münasibətlərimizin ən yüksək zirvəyə qalxdığını qeyd edib. Prezident İlham Əliyev bu gün dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Prezident İlham Əliyev həmin gün Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul edib.



## Acarıstandan gələn qonaqlarla görüş keçirilib





Gürcüstanın Acarıstan Muxtar Respublikasından bir qrup uşaq və onların valideynləri iyulun 5-dən xüsusi proqram çərçivəsində muxtar respublikamızdakı Duzdağ Fizioterapiya Mərkəzində müalicə alırlar. Acarıstanlı qonaqlar qısa zamanda müalicələri ilə bağlı yaxşı nəticələr əldə ediblər. İyulun 19-da Acarıstana yola salınacaq qonaqlarla səmimi görüş keçirilib.

Naxçıvan şəhərindəki "Saat meydanı" turistik istirahət mərkəzində yerləşən "Batumi" restoranında təşkil olunan görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin köməkçisi Seymur Talıbov Azərbaycan və Gürcüstan respublikaları arasındakı qədim dostluq, qardaşlıq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən danışıb. Çay süfrəsi arxasında təşkil olunan görüş zamanı bildirilib ki, Naxçıvan və Acarıstan Muxtar respublikaları arasında əlaqələrin inkişaf perspektivlərinə uyğun olaraq uşaqların müalicəsinə aid proqramların həyata keçirilməsi, həmçinin müxtəlif müalicə və reabilitasiya mərkəzləri arasındakı əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il mayın 5-də Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfər edən zaman muxtar respublikanın hökumət rəhbəri ilə görüşdə də vurğulanıb ki, hər iki ölkə arasındakı əməkdaşlığa uyğun olaraq 2012-ci ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında hərtərəfli əməkdaşlıq əlaqələri qurulub. İki dost muxtar respublika arasındakı əlaqələrin hazırkı səviyyəsi onu deməyə əsas verir ki, qardaşlıq münasibətləri hər iki tərəfdən qarşılıqlı səylərlə daha da dərinləşib.

Seymur Talıbov muxtar respublikaya müalicə məqsədilə gələn qonaqların cəlb olunduqları müalicədən sonra səhhətlərində baş verən irəliləyişlərlə də maraqlanıb.

Görüş zamanı valideynlər Nargis Jordaniya və Veriko Takidze onlar üçün yaradılan şəraitə görə minnətdarlıq edib, hər iki muxtar respublika arasındakı dostluq münasibətlərindən danışıblar.

Sonra acarıstanlı uşaqlara və onların valideynlərinə hədiyyələr tədqim edilib.

Qeyd edək ki, qonaqlar bu gun Acarıstan Muxtar Respublikasına yola salınacaqlar.

**"Şərq qapısı"**

## Taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə olub



Kəngərli rayonunda taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada taxılçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən danışıb, strateji məhsul olan taxıl istehsalını artırmaq qarşıya vəzifə kimi qoyulub.

İcra başçısı qeyd edib ki, muxtar respublikada ən çox taxıl əkilən rayonlardan biri də Kəngərli rayonudur. Bu il üçün rayonda 6056 hektar sahədə taxıl əkini həyata keçirilib. Ondan 3287 hektarını buğda, 2769 hektarını isə arpa təşkil edir. İyunun 12-dən taxıl biçininə başlanılıb. Tədarük olunan taxılda orta məhsuldarlıq 25,5 sentnerdir. Hazırda biçin yekunlaşmaq üzrədir.

Diqqətə çatdırılıb ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında taxılçılıq müstəsna əhəmiyyətə malikdir. Kəngərli rayonunda taxılçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən torpaq mülkiyyətçilərinin keyfiyyətli toxumla təmin olunması, indiyə qədər əkilməyən torpaq sahələrinə qapalı suvarma şəbəkələrinin çəkilərək əkin dövriyyəsinə qatılması və yeni su nasos stansiyalarının tikilib istifadəyə verilməsi bu sahədə mühüm nəticələrin əldə olunmasına şərait yaradıb. Lakin dövlət tərəfindən göstərilən hərtərəfli diqqət və qayğıya baxmayaraq, bu sahədə hələ də nöqsanlar mövcuddur. Belə ki, suvarılan və dəmyə torpaqlar olmaqla, 3508 hektar sahə əkinəyararlı olsa da, ötən il əkilməyib. Bəzi təsərrüfat sahibləri aqrotexniki qaydalara əməl etmirlər. Buna görə məhsuldarlıq aşağı düşür.

Bildirilib ki, dəmyə üsulundan istifadə diqqətdə saxlanılmalı, taxıl əkini sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması istiqamətində verilmiş tapşırıqlar vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir. Dövlət qayğısından səmərəli istifadə edilməklə növbəti payız taxıl əkini mövsümü üçün qeyd olunan nöqsanlar aradan qaldırılmalıdır.

Müşavirədə sözügedən məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vasif Məmmədov çıxış etmişlər.

**Xəbərlər şöbəsi**

## Yarım ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində 2022-ci ilin birinci yarım ilində görülmüş işlər və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasından irəli gələn vəzifələrlə bağlı keçirilən kollegiya iclasını giriş sözü ilə maliyyə naziri Rafael Əliyev açıb. Bildirib ki, cari ilin birinci yarım ilində



Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 71 milyon 540 min manat təyinata qarşı 106,9 faiz icra olunub, büdcəyə nəzərdə tutulandan 4 milyon 956 min 694 manat çox vəsait mədaxil edilib. Büdcə gəlirlərinin 73 faizi və ya 55 milyon 834 min 602 manatı Dövlət Vergi Xidməti tərəfindən təmin edilmiş vergi və rüsumlardan, 23,5 faizi və ya 18 milyon 18 min 509 manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 3,2 faizi və ya 2 milyon 423 min 11 manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 0,3 faizi və ya 220 min 572 manatı isə digər mənbələrdən daxil olub.

Qeyd edilib ki, 2022-ci ilin birinci yarım ilində Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 287 milyon 117 min 581 manat təyinata qarşı 277 milyon 64 min 556 manat və ya 96,5 faiz icra olunub. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq işlərinin aparılmasına, təhsil və səhiyyə müəssisələrinin tikintisinə, eyni zamanda infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilib.

Vurğulanıb ki, 2022-ci ilin ilk altı ayında dövlət büdcəsinin icrası zamanı dövlət büdcəsindən maliyyələşən və ya maliyyə yardımı alan təşkilatlar tərəfindən bütün mal-material və avadanlıqların real dəyəri ilə satın alınmasına, büdcə vəsaitlərindən qənaətlə və səmərəli istifadəyə ciddi nəzarət tədbirləri davam etdirilib, bununla da 3 milyon 775 min 400 manatdan çox vəsaitin əsassız xərclənməsinin qarşısı alınıb. Mütəmadi şəkildə aparılmış maliyyə nəzarət tədbirləri nəticəsində dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatların maliyyə və mühasibatlıq sənədlərində artıq hesablamalar və müxtəlif kənarlaşmalar nəticəsində dəymiş ziyan müəyyənləşdirilib, maddi məsul şəxslərdən tutularaq dövlət büdcəsinə bərpa edilib. Ötən yarım ildə əsassız xərc, cərimə və dəymiş zərərə görə 59 min 993 manat vəsait dövlət büdcəsinə geri qaytarılıb.

Nazir kollektivin diqqətinə çatdırıb ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Maliyyə Nazirliyinə dövlət büdcəsinin icrasına və büdcə vəsaitlərindən qənaətlə istifadəyə nəzarətin gücləndirilməsi, təhlillərin aparılması, növbəti ilin büdcə proqnozlarının hazırlanması tapşırılıb. Ali Məclisin Sədri tərəfindən Maliyyə Nazirliyinin qarşısına qoyulmuş tapşırıqlar qarşıdakı fəaliyyət dövründə işdə rəhbər tutularaq icra olunmalı, etibarlı maliyyə nəzarəti sistemi formalaşdırılmaqla büdcə xərclərinin icrasına nəzarət daha da gücləndirilməlidir.

İclas cari ilin 6 ayı ərzində görülən işlər barədə çıxışlarla davam edib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

***Gigiyena və epidemiologiya şöbələrinin əsas fəaliyyəti əhalinin sağlamlığının qorunması, infeksion, parazitar xəstəliklərin və kütləvi qida zəhərlənmələrinin qarşısının alınması profilaktik tədbirlərin həyata keçirilməsindən ibarətdir. Muxtar respublikamızda hər bir sahədə olduğu kimi, bu sahəyə də xüsusi diqqət göstərilir, həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi gigiyena və epidemioloji tədbirlərinə ciddi önəm verilir. Bunun ifadəsidir ki, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin səmərəli fəaliyyəti təmin edilib, həmin təşkilatlar üçün yeni binalar istifadəyə verilib, avadanlıqlar alınıb, müasir laboratoriyalar qurulub.***

## Gigiyena və epidemiologiya şöbələri işlərini günün tələbləri səviyyəsində qurur

Bu sahədə görülən işlər, xüsusilə gigiyena və epidemiologiya sahəsində idarəetmənin təkmilləşdirilməsi, mütəmadi dezinfeksiya işlərinin aparılması və təmizliyə diqqətin artırılması yoluxucu xəstəliklərin yayılmasının qarşısını almışdır. Dünyada pandemiya halını almış virusun muxtar respublikada geniş yayılmaması və epidemioloji vəziyyətin sabit olması da həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı” isə adıçəkilən məsələlərin həllində böyük əhəmiyyətə malik olan dövlət sənədidir. Fevral ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***“Naxçıvan Muxtar Respublikasında gigiyena-epidemiologiya və baytarlıq təbabəti sahəsində Dövlət proqramlarının qəbul olunması, həyata keçirilən qabaqlayıcı profilaktik tədbirlər sağlam ətraf mühit və sağlam qida təminatına imkan verir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada sanitar-epidemioloji vəziyyət sabitdir”.***





Proqramda qarşıya qoyulan vəzifələrin və müşavirədə verilən tapşırıqların bölgələrimizdə icrası, konkret olaraq, Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsində həyata keçirilməsi ilə maraqlanmaq üçün ötən günlərdə yolumuzu bu ünvandan saldıq. Şöbənin müdir əvəzi ***Hüseyn Səfərov***la söhbətimiz zamanı bildirdi ki, muxtar respublikada həyata keçirilən sosial- iqtisadi islahatlar, aparılan kompleks quruculuq işləri Şahbuz rayonunda da geniş vüsət alıb. Ötən il yanvar ayının 19-da istifadəyə verilən Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsində yaradılan müasir iş şəraiti məsuliyyətimizi daha da artırıb.

Binanın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək deyib: ***“Bu gün Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş otaqları istifadəyə verilir. Şahbuz rayonu 1930-cu ildə yaradılıb. Bu illər ərzində rayon böyük inkişaf yolu keçib, təşkilatlar formalaşıb. Rayonun ötən illərdə inkişafına töhfə verən təşkilatlardan biri də Gigiyena və Epidemiologiya Şöbəsidir. Şöbənin kollektivi tərəfindən rayonda epidemioloji vəziyyətə daim nəzarət olunur, əhali arasında maarifləndirici tədbirlər aparılır. Şahbuz rayonunda 1 şəhər, 1 qəsəbə və 22 kənd vardır. Rayonda 25 mindən çox əhali yaşayır. Əhalinin gigiyenik qaydalara əməl etməsi ilə bağlı maarifləndirmə işlərinin aparılması, eyni zamanda ərazidə epidemioloji vəziyyətə nəzarət üçün şöbənin iş şəraitinin müasirləşdirilməsinə ciddi ehtiyac vardı. Dünyada baş vermiş epidemioloji vəziyyət gigiyena və epidemiologiya sahəsinin nə qədər vacib olduğunu göstərdi. Bütün bunlar nəzərə alınaraq 2020-ci ildə muxtar respublikada bu sahədə struktur dəyişikliyi edilərək Naxçıvan Muxtar Respublikasında Gigiyena və Epidemiologiya Mərkəzi, rayonlarda isə şöbələri yaradıldı. Şahbuz rayonundakı şöbə 26 ştat vahidi ilə fəaliyyətə başladı”.***

Şöbə ilə tanışlıq zamanı öyrəndik ki, şöbədə müdir, epidemioloq, sterilizasiya və dezinfektor otaqları, epidemioloji, bakterioloji, parazitoloji, ümumi sanitariya laboratoriyaları, bufet və anbar vardır.



Şöbə nitratometr, dozimetr, PH- metr, termohiqrometr, binokulyar mikroskop, avtoklav, distilyator, sentrifuqa, analitik tərəzi, quruducu və soyuducu şkaflar, həmçinin köməkçi tibbi ləvazimatlarla təmin edilmişdir. Kollektiv də yaradılan yüksək şəraitdən istifadə edərək üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır.

Şöbənin maddi-texniki bazasının gücləndirilməsi sayəsində bu istiqamətdə görülən işlərin səmərəliliyi də əvvəlki illərdən fərqli olaraq xeyli artırılıb. Dövlət qayğısına əməli işlə cavab verməyə çalışan kollektiv üzvləri yaradılan şəraitdən istifadə edərək öz işlərini məqsədyönlü şəkildə həyata keçirirlər. Onlar tərtib olunmuş iş planına əsasən rayonun yaşayış məntəqələrində reydlər keçirir və əhali arasında maarifləndirici söhbətlər aparırlar.

Belə ki, şöbənin əməkdaşları tərəfindən tez-tez müxtəlif obyektlərdə dezinfeksiya işləri həyata keçirilir.

Öyrəndik ki, rayonun ərazisindəki su mənbələrində, məişət tullantılarının atıldığı ərazilərdə, yay mövsümündə yaylaqlarda kollektiv tərəfindən dərmanlama işlərinin həyata keçirilməsinə ciddi önəm verilir. Görülən işlər mütəmadi xarakter aldığından rayon ərazisində epidemioloji vəziyyət də sabit qalır və heç bir neqativ hal yaranmır. Təkcə iyun ayının 1-dən 10-dək olan dövrdə 161 obyektdə, 230635 kvadratmetr sahədə, mağaza və ticarət mərkəzlərində dezinfeksiya işləri aparılıb.

Müsahibim onu da bildirdi ki, infeksion xəstəliklərin yaranması hallarına daha çox yaz və yay aylarında təsadüf olunur. Ona görə də, əsasən, həmin fəsillərdə epidemioloji tədbirləri mütəmadi olaraq həyata keçiririk. Çalışırıq ki, açıq su hövzələrində, su mənbələrində, həmçinin şəhərimizə gələn su kaptajlarında xlorlu əhənglə dərmanlama işləri də həyata keçirilsin. Həmçinin mağazalarda satılan məhsulların keyfiyyətinə və istifadə müddətinə ciddi nəzarət olunur. Dezinfeksiya və dezinseksiya işlərinin aparılmasını diqqət ində saxlayırlar.

*Son olaraq qeyd etməyi lazım bilirəm ki, dünyada mövcud problemlərin muxtar respublikamıza, necə deyərlər, “girişinin” qarşısının alınması üçün görülən məqsədyönlü tədbirlər öz bəhrələrini verib. Bunu elə Şahbuz rayonunun timsalında da görmək olar.*

✍ **Telli MƏMMƏDOVA**

*Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı, Vətənə sədaqətli övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Xüsusilə qayğı və diqqətə, həssas münasibətə ehtiyacı olan fiziki imkanları məhdud uşaqları… Bu qəbildən olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi muxtar respublikamızda dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasına, cəmiyyətə inteqrasiyasına mühüm sosial vəzifə olaraq yanaşılan muxtar diyarımızda onlara göstərilən qayğı sayəsində belə uşaqların gözlə görünən məhdudiyyətləri kölgədə qalır. Həmyaşıdları ilə bərabər imkanlara malik sağlam mühitin formalaşdırılması bu uşaqların cəmiyyətə inteqrasiya olunması baxımından olduqca əhəmiyyətlidir. Çünki bu istiqamətdə həyata keçirilən tədbirlər məhdud fiziki imkanlı uşaqların özlərini cəmiyyətdən təcrid etməsinin qarşısını alır və onların hərtərəfli inkişafı üçün əlverişli şərait yaradır.*

## Sağlamlıq imkanları məhdud uşaqlara qayğı məqsədyönlü və humanist siyasətin tərkib hissəsidir

Naxçıvan Muxtar Respublikasında ötən müddətdə icrası uğurla həyata keçirilən Dövlət proqramlarından əldə edilən nəticələr bunu deməyə əsas verir. Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi, o cümlədən təhsili və reabilitasiyası üzrə uğurla icra olunan Dövlət proqramları sosial kateqoriyadan olan uşaqların layiqli vətəndaş kimi formalaşması istiqamətində tədbirlərin kompleks xarakter almasına səbəb olub. Görülən işlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə bu sahədə növbəti – “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq edilib. Proqramda nəzərdə tutulan tədbirlərin yönəldiyi əsas istiqamətlərdən birini sağlamlıq imkanları məhdud uşaqların təhsilə inteqrasiyasının davam etdirilməsi təşkil edir. Muxtar respublikada təhsilin müasir standartlar səviyyəsində təşkilinə göstərilən diqqət sağlamlıq imkanları məhdud uşaqları da əhatə etməkdədir. Bu kateqoriyanın nümayəndələrinin erkən yaşlardan əhatəli təhsil imkanları ilə təmin olunması onlarda psixoloji hazırlığın yüksəldilməsinə və özünəinamın formalaşdırılmasına müsbət təsir göstərir.



Bu sosial kateqoriyanın nümayəndələrinin cəmiyyətə uyğunlaşmasında, onlara müxtəlif bacarıq və vərdişlərin aşılanmasında peşə təhsilinin də rolu danılmazdır. Sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlbi onların əmək bazarına inteqrasiya olunması və sosial reabilitasiyasının başlıca şərtlərindəndir. Belə ki, bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə kurslarına müvafiq kateqoriyadan olan uşaqlar cəlb edilir. Çünki sağlamlıq imkanları məhdud uşaqların müxtəlif peşə sahələri üzrə əmək vərdişlərinə yiyələnmələri onların fərdi inkişafına müsbət təsir göstərən amillərdəndir.

Həmin kateqoriyadan olan uşaqlar üçün inklüziv təhsilin səmərəsini artıran faktorlardan biri də müəllimlərin bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Proqramın icrasına uyğun olaraq psixoloq və ibtidai sinif müəllimlərinə “Autizmli uşaqların cəmiyyətə qazandırılması” mövzusunda seminarlar keçirilir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün əlverişli təhsil şəraitinin yaradılması ilə yanaşı, tibbi reabilitasiya tədbirlərinin təşkili də onların həyata adaptasiyasına mühüm köməklik göstərir.

Muxtar respublikamızda bu kateqoriyadan olan uşaqların reabilitasiya potensialının düzgün müəyyənləşdirilməsi, onların tibb-terapevtik müalicələrinin təşkili istiqamətində tədbirlər geniş vüsət alıb. Qeyd olunanlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara psixoloji dəstəyin də göstərilməsi onlarda həyata inam hissinin inkişafına təkan verir. Proqramın icrasına uyğun olaraq uşaq bərpa müalicəsinin təşkili məqsədilə bu qəbildən olan uşaqlara göndərişlər verilir. Naxçıvan Uşaq Bərpa ində müvafiq kateqoriyadan olan uşaqların müalicəsi təşkil edilir. Onlar texniki reabilitasiya vasitələri ilə təmin edilir, bu qəbildən olan uşaqlara protez-ortopedik xidmətlər göstərilir.




Dövlət proqramının qəbul edildiyi gündən etibarən sağlamlıq imkanları məhdud uşaqlar üçün “Kukla” və “Nağıl” terapiyalarının tətbiqinə də başlanılıb. Yeni terapiyaların fəaliyyətə başlaması bu kateqoriyadan olan uşaqların psixoloji reabilitasiyası və sosial adaptasiyasına köməklik məqsədi daşıyır.

İdman sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki inkişafının mühüm şərtlərindəndir. Bu sosial kateqoriyanın nümayəndələrinin müxtəlif idman tədbirlərində iştirakının təmin olunması onların istedadlarının üzə çıxarılmasında önəmli rol oynayır. Belə ki, muxtar respublikanın şəhər və rayonlarında velosiped, stolüstü tennis, şahmat, boccia, dartı və yüngül atletika idman növləri üzrə təşkil olunan müsabiqələrdə sağlamlıq imkanları məhdud uşaqlar iştirak edir. Keçirilən müsabiqələrdə uğurla iştirak edən həmin uşaqlar müxtəlif diplom, fəxri fərman və həvəsləndirici hədiyyələrlə mükafatlandırılırlar.



Bütün bunlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili də onların intellektual və mənəvi inkişafı baxımından effektiv nəticə verir. Təşkil olunan tədbirlər, eyni zamanda uşaqların psixi inkişafına da köməklik göstərir. Bu qəbildən olan uşaqlar muxtar respublikada fəaliyyət göstərən məktəbdənkənar müəssisələrdə yaradılmış innovativ dərnəklərə cəlb olunur. Müvafiq kateqoriyadan olan uşaqlar üçün oxunması zəruri olan kitabların müzakirəsi, rəsm, bədii qiraət müsabiqələri, bilik yarışları, gəzintilər, əyləncəli oyunlar, müxtəlif bədii əsərlərdən ibarət səhnəciklər təşkil edilir.

Muxtar respublikada dövlət uşaq siyasətinin tərkib hissəsi kimi bu qəbildən olan uşaqların istirahət günləri və asudə vaxtlarının səmərəli təşkil edilməsi hər zaman diqqət mərkəzində saxlanılır. Bu sahəyə göstərilən diqqət və qayğının davamı olaraq onların yay tətili günlərinin maraqlı keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün “Yay məktəbi” təşkil edilir. “Yay məktəbi” çərçivəsində idman yarışları, əyləncəli və intellektual oyunlar, maarifləndirici seminarlar keçirilir, oxunması zəruri olan kitabların mütaliəsi və müzakirəsi aparılır, vətənpərvərlik ruhunda çəkilmiş filmlər nümayiş olunur. “Yay məktəbi” çərçivəsində keçirilən bu kimi tədbirlər uşaqların dünyagörüşlərinin artırılmasında, biliklərinin zənginləşməsində çox mühüm əhəmiyyətə malikdir.

*Bir zamanlar valideynləri üçün gözdağı olan bu kateqoriyaya aid uşaqlar indi dövlətimizin hərtərəfli qayğısı əhatəsindədirlər. Valideynlər də bunu görür və dəyərləndirirlər. Unutmayaq ki, bir insanın fiziki imkanlarının məhdud olması heç də onun sıralarımızdan geri qalması demək deyil. Fiziki baxımdan məhdud imkanlı elə insanlar var ki, onlar mənəvi cəhətdən bəzi sağlam adamlardan da faydalıdır. Fiziki məhdudluq zahiri əlamətdir, elə insanların mənəviyyatı bəzi insanlardan sağlam olur.*

✍ **Gülcamal TAHİROVA**



*Təhsil insanların dünyagörüşünün formalaşmasında, onların cəmiyyət həyatında iştirakında, bilavasitə sosial mühitə inteqrasiyasında mühüm rol oynayır. Azərbaycan dünya təcrübəsində böyük nüfuz qazanmış o ölkələrdəndir ki, burada elm və təhsilin inkişafına hər zaman böyük önəm verilib. Xüsusilə qadınlarımızın təhsilə cəlbində ötən əsrin əvvəllərindən başlayaraq Azərbaycan mesenatlarının bu işə necə bir töhfə verdikləri hamımıza məlumdur. Müasir dövrdə isə Azərbaycan qadını cəmiyyət həyatının bütün sahələrində fəal iştirak edir. Təbii ki, bu da ölkəmizdə gender bərabərliyinə, aparılan uğurlu dövlət qadın siyasətinə əsaslanır. Bütün bunların təməlində isə Azərbaycan qadınının təhsili dayanır.*

**Təhsil millətin gələcəyidir**

# Naxçıvan Qızlar Liseyi mühüm ənənələri olan təhsil müəssisəsidir

Muxtar respublikamızda da təhsilə, eləcə də qızlarımızın bu və ya digər sahələrdə hərtərəfli inkişafına böyük qayğı göstərilir. Bu il fəaliyyətinin 30 ili tamam olan Naxçıvan Qızlar Liseyi də, bu mənada, muxtar respublikamızın ictimai-mədəni həyatında fərqlənən bir çox gənc xanımlarımızın fəaliyyətində mühüm rol oynayır. Azərbaycanda yeganə qızlar liseyi olan bu təhsil ocağının direktoru ***Aida Allahverdiyeva*** ilə söhbətimizdə də liseyin keçdiyi tarixi inkişaf yoluna birgə nəzər saldıq. Onun dediklərindən: “Naxçıvan Qızlar Liseyi fəaliyyətə 1992-ci ildən başlayıb. Ötən dövrdə daim dövlətimizin diqqət mərkəzində olan təhsil müəssisəmiz 2011-ci ildə əsaslı şəkildə təmir edilərək müasir standartlara cavab verən təhsil avadanlıqları ilə təmin olunub. Zirzəmi



ilə birlikdə 4 mərtəbədən ibarət olan təhsil müəssisəsində geniş idman zalı, zəngin kitabxana, fizika, kimya, biologiya laboratoriyaları, yeməkxana mövcuddur. Şagirdlərin yüksək səviyyədə təhsil alması üçün burada hərtərəfli şərait yaradılıb: 4 elektron sinif otağı, 2 kompüter otağı fəaliyyət göstərir ki, buradakı bütün kompüterlər internet şəbəkəsinə qoşulubdur. Bununla yanaşı, məktəbimizdə müxtəlif dərnəklər, mənəviyyat seminarları, dərsdən sonra tərbiyəçi saatları təşkil olunur. Əsas məqsəd isə şagirdlərin növbəti gün üçün dərslərini hazırlamasıdır. Onu da qeyd edim ki, məktəbimizdə 60 təcrübəli müəllim çalışır və 380 qız şagird təhsil alır. Mövcud təhsil sisteminin uğurlu nəticəsidir ki, son 5 il ərzində məzunlarımızdan 49 nəfəri 500-700 intervalında bal toplayıb. Onlardan 5-i “Qızıl”, 3-ü “Gümüş” nişana, 16-sı isə fərqlənmə attestatına layiq görülüb. Liseyin özünəməxsus ənənələri vardır. Pedaqoji heyətimizin devizi yüksək savada malik, dünyagörüşlü, vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq əsl Azərbaycan xanımı yetişdirməkdir. Liseyimiz ümumtəhsil məktəblərinin proqramları əsasında fəaliyyət göstərir, dərs saatlarından sonra isə müəllimlərimiz şagirdlərlə yaxından məşğul olurlar. Məşğələlər şagirdlərin dərsləri daha dərindən mənimsəməsinə, onların bilik və bacarıqlarının artırılmasına, dünyagörüşlərinin formalaşdırılmasına zəmin yaradır. Bu da özünü hər il qəbul imtahanlarında göstərir. İldən-ilə 500-700 intervalında bal toplayan şagirdlərimizin sayı artır. Respublika fənn olimpiadalarında, beynəlxalq olimpiadalarda yaxından iştirak edən şagirdlərimiz “Qızıl”, “Gümüş” nişanlar və fərqlənmə attestatları ilə məktəbi başa vururlar. Xüsusilə hər tədris ili yekunlaşarkən ilin nəticələrini ötən illərlə müqayisə edirik. Göz önündə olan artım isə bizim əvvəlcədən nəzərdə tutduğumuz proqnozla üst-üstə düşür”.

Müsahibimiz şagird yaradıcılığını inkişaf etdirən dərnək məşğələlərdən danışaraq əlavə etdi: “Qeyd etdiyim kimi, çalışırıq ki, xanımlarımız öz adət-ənənələrinə, milli və mənəvi dəyərlərə sadiq şəkildə yetişsinlər. Bu mənada, elə məhz öz adət-ənənələrimizə uyğun şəkildə müxtəlif dərnəklər təşkil etmişik. Liseyimizdə tikiş-toxuculuq, xalçaçılıq və kulinariya dərnəkləri fəaliyyət göstərir ki, şagirdlərimiz dərsə olan maraqlarını dərnəklərə də göstərirlər. Xanımlarımızın əl işləri müxtəlif sərgilərə çıxarılır. Bu həm onlara stimul verir, həm də digər şagirdlərimizin bu sahəyə cəlbini, marağını artırır.

Onu da qeyd etmək istərdim ki, muxtar respublikamızın digər təhsil müəssisələrində olduğu kimi, liseyimizdə də STEAM təhsil mərkəzi fəaliyyət göstərir. Artıq burada STEAM kabinəsi yaradılıb və şagirdlərin istifadəsinə verilib. Xanımlarımız bu müasir təhsil metoduna böyük maraq göstərir və muxtar respublikada təşkil olunan ilk “STEAM təhsil festivalı”nda və Bakıda keçirilən TEKNOFEST-də “Robot qol” və “3D bacarıqları” layihələri ilə iştirak etmişlər”.

Aidə xanım məktəbin direktoru, eyni zamanda şagirdlərlə sıx ünsiyyətdə olan müəllim kimi gənclərimizə arzularını da ifadə etdi: “Bilirsiniz, müəllimlik tamamilə fərqli bir hissdir. Bir müəllim üçün yaşam sevinci, onu həyata bağlayan əsas səbəb, təbii ki, yetişdirdiyi şagirdlərin uğuru, cəmiyyətdə xeyirli bir fərd kimi formalaşması, faydalı olmasıdır. Elə sizin, bu məktəbin məzunu, bizim yetirməmiz kimi qarşımda əyləşib müsahibə almağınız çox sevindiricidir. Bu gün bilikli və Vətənə sədaqətli gəncliyimiz varsa, düşünürəm ki, bu işdə müəllimlərimizin zəhməti əvəzsizdir. Sonda bütün şagirdlərimizə, məktəbi bitirən məzunlarımıza gələcək həyatlarında uğurlar arzu edirəm. İnanıram ki, liseyimiz bundan sonra da müxtəlif istiqamətlərdə, ələlxüsus da, təhsil sahəsində bir çox uğurlarla, yeniliklərlə yaddaşlarda qalacaq. Bizim bir pedaqoq kimi yeganə məqsədimiz də məhz budur”.

Naxçıvan Qızlar Liseyində olarkən bu il məktəbi yüksək nəticələrlə başa vuran məzunlarla da görüşmək imkanımız oldu.

Məktəbi “Gümüş” nişanla bitirən ***Nuray Məmmədova*** təhsil aldığı bu elm məbədgahı ilə bağlı öz təəssüratlarını bizimlə bölüşdü: “Yeddi il bu məktəbin tələbəsi olmuşam. Naxçıvanda özünəməxsus təhsil, nizam-intizam sistemi ilə fərqlənən qızlar liseyinin məzunu olmaq mənim üçün böyük qürurdur. Öz təhsil həyatımda şahid oldum ki, əziyyət çəkirsənsə, təhsil almağa can atırsansa, bu heç vaxt yerdə qalmır, mütləq nəticəsini görürsən. Mən və yoldaşlarım uğurlarımıza görə müxtəlif diplomlarla, hədiyyələrlə təltif olunmuşuq. Bu uğurlarımızı respublikada keçirilən olimpiadalar, “Xəmsə” bilik yarışmasında, şahmat, voleybol və digər sahələrdə qazanmışıq”.

Daha sonra müsahibimiz növbəti illərdə bu məktəbdə oxuyacaq şagirdlərə öz arzularını dilə gətirdi:

“Düşünürəm ki, qarşımızdakı sınaq nə qədər çətin olursa olsun, fikrimizi ona yönəldib özümüzü yormamalıyıq. Elə qəbul imtahanına hazırlaşarkən də bu prinsipi əsas götürdüm. IV ixtisas qrupu üzrə 593 bal toplaya bildim. Liseydə təhsil aldığım illərdə müxtəlif bilik yarışmalarında iştirak etdim, hətta bir neçə həftə əvvəl keçirilən “STEAM təhsil festivalı”nda “Sabahın tədqiqatçıları” layihəsi ilə iştirak etdim. Çox gözəl təcrübə idi. Xüsusilə yeni texnologiyalara uyğunlaşmaq dövrümüzün tələbidir. Bir sözlə, bütün abituriyentlərə bu çətin, amma bir o qədər də maraqlı və əvəzolunmaz yolda uğurlar arzu edirəm”.

Digər həmsöhbətim məzunlardan ***Gülnur Hümbətova*** oldu. O, I ixtisas qrupu üzrə 630 bal toplamaqla tələbə



adı qazanmağın bir addımlığında dayanıb. Dərslərin yüksək səviyyədə tədrisindən danışan müsahibim dedi:

“Məktəbimizin təhsil sistemi muxtar respublikanın digər məktəblərindən xeyli fərqlidir. Məktəbdə gündəlik dərs saatlarından əlavə tərbiyəçi saatlarında da iştirak edirdik ki, bu da bizim üçün başqa bir üstünlük idi. Bu saatlar ərzində növbəti günlər üçün dərslərimizi hazırlayırdıq. Çoxları düşünür ki, mövcud tədris proqramı həddindən artıq ağırdır. Amma qeyd edim ki, məktəbimizin təşkil etdiyi dərnəklər həm bizim mənəvi istirahətimizi təmin edir, həm də dərsləri daha asan qavramamıza kömək olurdu. Burada yaradılan toxuculuq, xalçaçılıq, kulinariya və digər dərnəklər hər birimizin maraq dairəsində idi. Şəxsən mənim rəsm çəkməyə və kitab oxumağa böyük həvəsim var. Hətta özümə kitabxanamızdakı bütün kitabları oxumağı hədəf qoymuşdum. Məktəbi bitirəndə oradakı bir neçə kitab xaric olmaqla çoxusunu artıq oxumuşdum. Ətrafımızdakı insanlara çox zaman maraqlı gələn digər məsələdən də danışmaq istəyirəm. Bildiyimiz kimi, əksər abituriyent universitetə hazırlaşdığı müddətdə repetitorlara müraciət edir. Bizim məktəbin o qədər savadlı, qayğıkeş pedaqoji heyəti var ki, müəllimlərimin dəstəyi və çəkdiyim əziyyətlər öz bəhrəsini verdi, 630 balla I ixtisas qrupu üzrə muxtar respublikada 6-cı yeri tutdum. Son olaraq mən də digər məzun yoldaşlarım adından liseyimizin bütün pedaqoji kollektivinə, müəllimlərimizə minnətdarlığımı bildirirəm”.

*Naxçıvan Qızlar Liseyi muxtar respublikamızda sayılıb-seçilən təhsil müəssisələrindəndir. Burada keçirdiyim bir neçə saat məndə yenidən xoş təəssüratlar yaratdı. Sanki məni qayğısız məktəb illərimin keçdiyi, parta arxasında əyləşib tək qayğısı dərs oxumaq olan o çağlara apardı... İnanırıq ki, lisey bundan sonra da fəaliyyətini uğurla davam etdirəcək, buradan məzun olacaq xanım qızlarımız Vətənimizə müxtəlif sahələrdə layiqincə xidmət edəcəklər!*

**Aysel YUSİFZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

*Hər birimizin başına gəlməsə də, çox insanların pul kisələrindən pullarının itməsi halları mütləq ki olmuşdur. Müasir dövrdə pul kisələri öz yerini yavaş-yavaş plastik kartlara təhvil verməkdədir. Plastik kartların pul kisələrindən daha etibarlı olduğunu qeyd etməkdə fayda var.*

# Ödəniş kartımızı dələduzlardan necə qorumalıyıq



Bir şeyi də unutmamalıyıq ki, biz pulu təkcə itirmirik, həm də pulumuz oğurlanır. Bank kartlarının inkişaf etməsinə, yayılmasına, tələb görməsinə mütənasib olaraq bu sahənin dələduzluğunun da “inkişaf etməsi”, təbii ki, qaçılmazdır. Qeyd etdiyimiz kimi, pulumuz kartda nə qədər etibarlı saxlansa da, xüsusilə bizdən asılı olan səbəblərdən bu etibarlı təhlükəsizlik yox səviyyəsinə çata bilər. Bank kartları fərdə məxsus xüsusiyyətlərə malik məxfi məlumatların cəmləşdiyi bir vasitədir. Zahiri cəhətdən kart üzərindəki yazılar görünür olsa da, əslində, yalnız kart sahibinin görməli olduğu gizli məlumatlardır. Plastik kartların üzərində olan 16 rəqəmli IBAN (International Bank Account Number) nömrəsi, son istifadə tarixi və CVV/CVC (Card Validation Value və Card Validation Code) nömrəsi yalnız kart sahibinə aid məlumatlardır. Bu məlumatlar bankomatlardan pulun çəkilməsi zamanı önəmsiz kimi görünsələr də, əslində, müasir internet ticarətinizin, onlayn alış-verişinizin və mobil köçürmələrinizin reallaşması üçün əsas rekvizitlər hesab olunurlar. Fiziki olaraq kartınızı itirsəniz dördrəqəmli təhlükəsizlik kodu olmadan bankomatlardan pulunuzun çəkilməsi mümkün olmaz. Lakin onlayn istifadə üçün lazım olan məlumatlar kartın üzərindədir. Bu səbəbdəndir ki, müasir bankçılıqda banklar “3D Secure” adını verdikləri təhlükəsizlik sistemini tətbiq edirlər. Onlayn əməliyyatı kart vasitəsilə etməmişdən öncə sizin mobil nömrənizə birdəfəlik kod gəlir və siz o kodu əməliyyatı yerinə yetirmək istədiyiniz platformada müvafiq xanaya daxil etdikdən sonra əməliyyat baş tutur. Kartınız başqa birinin əlinə keçdiyi təqdirdə həmin şəxs hər hansı əməliyyat etmək istədikdə SMS bildiriş sizin mobil nömrənizə gəldiyi üçün bunu edə bilməyəcəkdir. “3D Secure” banklar tərəfindən avtomatik olaraq tətbiq edilir. Əgər kartınızda “3D Secure” aktiv deyilsə, müştərisi olduğunuz banka müraciət etməklə bu xidmətə qoşula bilərsiniz.

Ən təhlükəli dələduzluq halları isə kart məlumatlarının aldatma yolu ilə bizdən alınaraq əldə edilməsi ilə baş tutur. Son dövrlərdə ölkə ərazisində tez-tez rast gəlinən bu dələduzluq halları vətəndaşların maddi vəziyyətlərinin pisləşməsi ilə yanaşı, bank vətəndaş münasibətlərinin korlanmasına da gətirib çıxarır.

Bu dələduzluq hallarının ən geniş yayılmış forması mobil nömrənizə daxil olan zənglərdir ki, zəng edən şəxslər müvafiq bankdan zəng etdiyini deyərək sizdən yuxarıda qeyd etdiyimiz kart məlumatlarını almağa çalışmaqla pis niyyətlərini həyata keçirməyə çalışırlar. Önəmli bir məqam isə kartınızdan çəkilən məbləğin geri qaytarılmasının qeyri-mümkün səviyyələrdə olmasıdır.

Unutmamalıyıq ki, müştəri qismində sizlərə bank tərəfindən hər hansı zəngin daxil olması halları yalnız müştərilərin öz öhdəliklərini yerinə yetirmədiyi və ya lazımi qaydada yerinə yetirmədiyi hallar ilə bağlı ola bilər. Digər hallar üzrə, xüsusilə də bank tərəfindən telefon vasitəsilə şəxsi məlumatlarla bağlı sualların verilməsi halları qeyri-mümkündür. Bu cür məsələlərdə fəallıq göstərib və daxil olan zənglərlə bağlı müştərisi olduğunuz banka məlumat verməlisiniz.

Bank sistemində üzləşdiyimiz bu təhlükələrə bütün dünya ölkələrində rast gəlinir. Təhlükəsizliyin yeganə yolu sizə aid məlumatların başqasının bilməməsidir.

**Elşad ƏHMƏDOV**
***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı***

# Əmək yarmarkaları olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq muxtar respublikada əmək yarmarkalarının keçirilməsi davam edir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası Naxçıvan şəhərində keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, muxtar respublikamızda



işaxtaran şəxslərin məşğulluqlarının təmin olunması, o cümlədən əmək bazarında rəqabətədavamlılığın artırılması, kadr potensialının yüksəldilməsi daim diqqət mərkəzindədir.

Hərbi xidmətdən yeni tərxis edilmiş gənclərin də iştirakı ilə keçirilən əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 70 müəssisədən 260 boş iş yeri təqdim olunub. Nəticədə, 30 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin edilib, 4 nəfərin özünüməşğulluq proqramına, 8 nəfərin isə peşə hazırlığı kurslarına cəlb olunması üçün qeydiyyatı aparılıb.

Şahbuz rayonunda keçirilən, işaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasına, rayon ərazisində fəaliyyət göstərən 24 müəssisədən 118 boş iş yeri təqdim edilib. Nəticədə, 17 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 6 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına 4 nəfər qeydiyyata alınıb.

Əlavə edək ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən iyul ayı ərzində keçirilən əmək yarmarkalarında, ümumilikdə, işaxtaranlara 280 müəssisədən 1291 boş iş yeri təqdim edilib. Bu tədbirlərdə 210 nəfər müvafiq vakansiyalar üzrə işə göndərilib, 72 nəfərin özünüməşğulluq proqramına, 37 nəfərin isə peşə hazırlığı kurslarına qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Gəncliyimiz, gələcəyimiz*

## Yaradılan hərtərəfli şərait öz bəhrəsini verir

***Uşaq və yeniyetmələrin hərtərəfli inkişafı daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Təbii ki, bu inkişafda insanın fiziki sağlamlığı da mühüm rol oynayır. Sağlamlığın qorunması üçünsə uşaqları mütləq idmana cəlb etmək lazımdır. Ona görə də ölkəmizdə və muxtar respublikamızda bu sahəyə xüsusi qayğı göstərilir. Çünki fiziki sağlamlıq vətənpərvərlik tərbiyəsinə də müsbət təsir edir. İdman isə fiziki sağlamlığın əsas amillərindən biridir. Bu sahə ilə məşğul olan uşaqlar dözümlü, iradəli olur, Vətənin müdafiəsində cəsarətlə iştirak edirlər. Bu mənada, Naxçıvan Muxtar Respublikasında yeniyetmə və gənclərimizin idmanla məşğul olması üçün yaradılan şərait onların gələcəyi üçün təminatdır. Ümumiyyətlə, gənclər adət-ənənələrimizin daşıyıcısı, milli-mənəvi dəyərlərimizin qoruyucusu, cəmiyyətin aparıcı qüvvəsidir. Ona görə də muxtar respublikamızda bu qüvvənin fiziki və mənəvi sağlamlığı daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 14 fevral 2020-ci il tarixli "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamının icrası istiqamətində görülən işlər də, bu mənada, muxtar respublikamızda idmanın inkişafına böyük təkan vermişdir.***



Muxtar respublikamızda istedadlı uşaq və gənclərin üzə çıxarılmasına da xüsusi diqqət yetirilir, bu istiqamətdə dövlət səviyyəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Xüsusi yaradıcılıq potensialı və qabiliyyəti ilə seçilən uşaqlar daim diqqət mərkəzində saxlanılır, adları gənc istedadların "Qızıl kitabı"na yazılaraq onlara xüsusi təqaüdlər verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iyulun 18-də "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Röya Abdullayeva kikboksinq idmanı, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Kamal Qafarov isə STEAM təhsili üzrə xüsusi təqaüdə layiq görülüblər. Hər iki gəncin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb.

Adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılan və xüsusi təqaüdə layiq görülən Röya Abdullayeva 2008-ci ildə Naxçıvan şəhərində anadan olub. O bu il Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin səkkizinci sinfini bitirib. Dərslərini çox yaxşı oxuyan Röya məktəbin idman zalında yaradılan şəraitdən istifadə edərək həm də idmanla məşğul olur. Onda idmana olan marağı atası – tanınmış idmançı, Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının sədri, Azərbaycan Respublikasının universal döyüş üzrə idman ustası, universal döyüş üzrə dünya ikincisi, Avropa və Azərbaycan çempionu, həmçinin MMA (qarışıq döyüş sənətləri) üzrə muxtar respublika çempionu olan Xəyal Abdullayev yaradıb.

İdman dərslərində fəal olan Röya boş vaxtlarında Naxçıvan şəhərində fəaliyyət göstərən "Turan" döyüş klubunda atası ilə birgə məşq edir.

5 ildir ki, atasından kikboksinqin sirlərini öyrənən Röyanın da uğurları az deyil. O, 2017-ci ildə MMA üzrə keçirilən Naxçıvan şəhər birinciliyinin qalibi olub. 2018-ci ildə keçirilən və ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda kikboksinq üzrə uşaq, yeniyetmə və gənclər arasında Naxçıvan Muxtar Respublika turnirində 8-12 yaşa qədər idmançılar arasında 25 kiloqram çəki dərəcəsində mübarizə aparıb və qalib olub. Elə həmin il sentyabr ayının sonlarında Bakıda keçirilən MMA üzrə Azərbaycan çempionatında 25 kiloqram çəki dərəcəsində öz həmyaşıdları ilə rinqə çıxan Röya ilk dəfə Azərbaycan çempionu adına layiq görülüb. 2019-cu ildə pankration və qrappling üzrə açıq Bakı çempionatında qızıl və gümüş medal qazanan istedadlı idmançımız bir il sonra kikboksinq üzrə Azərbaycan çempionatının, 2021-ci ildə isə pankration və qrappling üzrə açıq Bakı çempionatının qalibi olub.

Göründüyü kimi, Röya Abdullayeva idmanla məşğul olduğu bu beş ildə gənc istedad kimi kifayət qədər tanınıb. Hazırda onun perspektivi olduqca yüksək qiymətləndirilir. Ötən ilin sonlarında qazandığı uğur da bunu deməyə əsas verir. Türkiyənin Antalya şəhərində keçirilən universal döyüş üzrə dünya çempionatında qızlar arasında 12-13 yaş kateqoriyasında 47 kiloqram çəki dərəcəsində mübarizə aparan Röya Abdullayeva klassik və layt versiyaları üzrə qalib olaraq 2 qızıl medal qazanıb. Qazanılan bu uğuru daha əhəmiyyətli edən bir məqam da var – Röya bu böyük nəticə ilə adını Naxçıvan idmanı tarixinə dünya çempionu olan ilk qız idmançı kimi yazdırmağı da bacarıb. O, ötən il dekabr ayının 28-də idman sahəsində qazandığı uğurlara görə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən diplomla təltif olunub.

Gənc idmançımızın uğurları bununla bitmir. O bu il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda yeniyetmə və gənclər arasında keçirilən kikboksinq üzrə Naxçıvan Muxtar Respublika turnirində inamlı mübarizə apararaq 52 kiloqram çəki dərəcəsində birinci yerə layiq görülüb. Bundan əlavə, əldə etdiyi uğurlara görə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diploma mükafatlandırılıb.

Röyanın atası, həm də müəllimi Xəyal Abdullayev deyir ki, hər bir idmançını böyük arenalara aparan yol uşaq idmanından başladığı üçün ölkəmizdə, eləcə də muxtar respublikamızda uşaq idmanına xüsusi qayğı göstərilir. Uşaqların fiziki inkişafında, vətənpərvər ruhda böyüməsində böyük rol oynayan idmanın inkişafı vacib məsələlərdən biri kimi muxtar respublika rəhbərinin daim diqqət mərkəzindədir. İndi Naxçıvanda yaradılan idman cəmiyyətləri, idman növləri üzrə fəaliyyət göstərən federasiyalar, təhsil ocaqları bu inkişafa öz töhfələrini verirlər. İdmanın inkişafında döyüş klublarının da rolu böyükdür. Hazırda Naxçıvan şəhərində fəaliyyət göstərən "Turan" döyüş klubunda da təcrübəli məşqçilər tərəfindən uşaq və gənclərə idmanın sirləri aşılanır. Belə döyüş klubları yeniyetmə və gənclərə müxtəlif idman növlərinin sirlərini aşılamaqla yanaşı, həm də gələcək nəslin sağlam böyüməsində mühüm rol oynayır. Röya da məhz belə bir döyüş klubunun yetirməsidir. Onun idmanla ciddi məşğul olması gələcəkdə yaxşı bir idmançının yetişəcəyinə böyük inam yaradır. Əvvəllər muxtar respublikamızda idmanın döyüş növləri ilə məşğul olan qadın idmançılar, demək olar ki, yox səviyyəsində idi. Lakin Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının yaradılması ilə bu sahədə böyük bir irəliləyiş əldə edilmişdir. Hazırda döyüş növləri ilə onlarla yeniyetmə qız məşğul olur. Röya da onlardan biridir və onun gələcəkdə yaxşı bir döyüşçü olacağına şübhəm yoxdur.

Kikboksinq üzrə Azərbaycan çempionu Röya Abdullayeva isə deyir: "Gənc istedadların xüsusi təqaüdə layiq görülməyim və adımın Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılması mənim idman sahəsində kiçik işimə verilən yüksək qiymətdir. Bu etimad məni sevindirdiyi qədər məsuliyyətimi də artırır. Bundan sonra da hər zaman birinci olmaq üçün çox çalışacaq, daha böyük uğurlar qazanacağam".

Onu da qeyd edək ki, bütün bu uğurlar Röyanı çox həvəsləndirib. İndi o, idmanla daha ciddi məşğul olur. Çünki qarşıda onu daha məsuliyyətli, böyük yarışlar gözləyir.



Məşqçi-müəllim Xəyal Abdullayev yetirməsinin bundan sonrakı döyüşlərdə də qalib gələcəyinə inanır. Ən böyük inam isə Röyanın özünə məxsusdur. O, məşqlərini ara vermədən davam etdirir. İnanır ki, bundan sonra da muxtar respublikamızın idman şərəfini ləyaqətlə qoruyacaqdır.

*İnanırıq ki, Röya Abdullayeva Ali Məclis Sədrinin ona göstərdiyi bu böyük etimadı yeni-yeni uğurlar qazanaraq bundan sonra da doğruldacaqdır. Çünki bu gün Naxçıvanda yaradılan idman infrastrukturu, idmanın inkişafı və tədrisi sahəsində görülən işlər nümunə gücündədir. Qalır yaradılan bu şəraitdən düzgün istifadə edərək qazanılan uğurlara yenilərini əlavə etmək. Bu yolda Röyaya və onun kimi bütün istedadlı gənclərə yeni-yeni uğurlar arzulayırıq.*

**Qafar QƏRİB**
***"Nuh yurdu" qəzetinin redaktoru***

## Növbəti tamaşa rayon ictimaiyyətinə təqdim edilib



*İyulun 19-da Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı tanınmış yazıçı və dramaturq Seyfəddin Dağlının birpərdəli, dördşəkilli "Adı sənin, dadı mənim" satirik komediyası əsasında hazırlanmış tamaşanı rayon ictimaiyyətinə təqdim edib.*

Şərur Rayon Xalq Teatrının muxtar respublikamızda teatr sənətinin inkişafında və təbliğində özünəməxsus yeri vardır. Teatr müxtəlif janrlı əsərlər əsasında hazırladığı tamaşalarla rayon sakinlərinin estetik zövqünün formalaşmasında, gənclərin milli dəyərlər ruhunda tərbiyəsində, insanların asudə vaxtının mənalı və səmərəli təşkilində əhəmiyyətli rol oynayıb. 1938-ci ildə "Arşın mal alan" musiqili komediyasından bir səhnə hazırlayaraq təqdim edən kollektivə dahi bəstəkar Üzeyir Hacıbəylinin xeyir-duası ilə dram dərnəyi, 1981-ci ildə Qəni Hüseynovun "Nicat" əsərini böyük uğurla tamaşaya hazırlayan dram dərnəyinə isə böyük pedaqoq, rejissor Rza Təhmasibin adını daşımaqla "Xalq teatrı" statusu verilmişdir. Ötən dövrdə hazırlanan bir-birindən maraqlı tamaşalar teatrın uğurları sırasındadır. Bu illər ərzində xalq teatrı istedadlı aktyor və rejissor nəslinin yetişməsinə mühüm töhfələr verib.

"Adı sənin, dadı mənim" satirik komediyasında hadisələr ötən əsrin 60-cı illərində Azərbaycan şəhərlərindən birində cərəyan edir və komik məcrada davam edərək dövrün eybəcərliklərini ifşa edir. Tamaşada əsas surət olan Qəlyanalı və onun ətrafındakılar gülüş hədəfidirlər. Müxtəlif hiylələrlə əldə etdiyi bağı, evi, maşını ört-basdır etmək üçün qohumlarının adına sənədləşdirən Qəlyanalı, həm də ikinci arvad almaq eşqinə düşür, ikinci arvadın kəbinini isə təqaüdçü qohumu Həmzəyə kəsdirmək istəyir. Lakin tamaşanın finalında



Qəlyanalı öz hiylələrinin qurbanı olur.

Azərbaycan Respublikasının Əməkdar artisti Neymət İslamoğlu, aktyorlar Məhərrəm Əbilsoy, Sevinc Əlizadə, Mirtahir Seyidov, Vəli Həsənov, Rza Quliyev, Aysel Musayeva və Vüsalə Rüstəmzadənin rol aldığı tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Neymət İslamoğlu, tərtibatçı rəssamı Ricay Seyidov, musiqi tərtibatçıları Turan və Yasin Həsənovlardır.

Səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atletika Federasiyasının birgə təşkil etdiyi yeniyetmələr arasında atletika üzrə muxtar

## Muxtar respublika birinciliyinin qalibləri müəyyənləşib



respublika birinciliyinə yekun vurulub. Şərur Olimpiya İdman Kompleksində təşkil edilən birincilikdə 40-a yaxın ağır atlet 10 çəki dərəcəsində mübarizə aparıb.

Birinciliyin yekun nəticəsinə əsasən qızlar arasında Gülcahan Əliyeva (50 kiloqram) qalib adını qazanıb. Oğlanların mübarizəsində isə Ümid Babayev, Əli Qasımov (hər ikisi 30 kiloqram), Mikayıl Novruzov (34 kiloqram), Əlirza Hüseynov (38 kiloqram), Ehtiram Əhmədov (40 kiloqram), Elton Rəhimov (53 kiloqram), Məhərrəm Qurbanlı (54 kiloqram), İlkin Kərimov (62 kiloqram) və Həsən Babayev (86 kiloqram) öz çəki dərəcələrində hamıdan güclü olublar.

Komanda hesabında "Şərur" baş mükafatı qazanıb, idmançılar təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Əmək məzuniyyəti hissələrə bölünməklə verilə bilərmi?***

**Cavab:** Əmək qanunvericiliyinə əsasən işçilər vəzifəsindən (peşəsindən), əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, Əmək Məcəlləsi ilə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər. İşçilərə ödənişli əsas məzuniyyət 21 təqvim günündən az olmayaraq verilməlidir. Əmək stajından asılı olaraq işçilərə beş ildən on ilədək əmək stajı olduqda 2 təqvim günü, on ildən on beş ilədək əmək stajı olduqda 4 təqvim günü, on beş ildən çox əmək stajı olduqda isə 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

Əmək Məcəlləsinin 137-ci maddəsinə əsasən əmək məzuniyyəti işçinin arzusu və işəgötürənin razılığı ilə hissələrə bölünərək verilə bilər, bu şərtlə ki, məzuniyyətin bölünmüş hissələrindən birinin müddəti iki təqvim həftəsindən az olmasın. Əmək məzuniyyətinin bir hissəsindən istifadə edildiyi hallarda onun qalan hissəsi həmin məzuniyyətin verildiyi iş ili bitənədək və ya təqvim ilinin sonunadək, yaxud işçinin arzusu ilə növbəti iş ilinin əmək məzuniyyətinə birləşdirilib verilir.

Əmək məzuniyyətlərinin verilmə vaxtı işəgötürənin və işçinin təşəbbüsü ilə əsaslandırılmaqla onların qarşılıqlı razılığı ilə başqa vaxta keçirilə bilər.

***Naxçıvan Muxtar Respublikası***
***Prokurorluğunun Hüquqi təminat və***
***insan hüquqları məsələləri şöbəsi***

### *İtmişdir*

Qasımov Abbas Hüseyn oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Qasımov Abbas Hüseyn oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Nəcməddin Naxçıvani küçəsi, döngə 2, ev 12 ünvanında Kazımov Əzim Tahir oğluna məxsus 2916 inventar nömrəli texniki pasport və MH-0023586 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 638